Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Ünvan: ISR Plaza, Nizami küç. 69 AZ 1005 Bakı
Poçt:P.O. Box 28/29 AZ 1005 Bakı
Telefon:00994-12-4654127
Telefaks: 00994-12-4654125
Email: visa@baku.diplo.de
İnternet: www.baku.diplo.de

Aktuallaşdırılmışdır: Sentyabr 2014

Dil kursu (3 aydan az müddət üçün) - məlumat vərəqəsi

Üç aydan az davam edən dil kursuna viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:

- Xarici pasport (vizanın bitdiyi vaxtdan sonra ən azı 3 ay etibarlı və ən azı 2 boş səhifəsi olmaqla)
- Xarici pasportun şəkil olan səhifə və əvvəlki Şengen vizaları, ştampları və qeydləri olan səhifələrin surəti
- Şəxsiyyət vəsiqəsi *(əsli +surəti, ön və arxa səhifələrin surəti)*
- 1 ədəd tam şəkildə doldurulmuş və şəxsən 3 yerdən imzalanmış ərizə forması
- 1 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı) ərizə formasının üzərinə yapışdırılmalıdır
- Səfərin müddəti və bütün Şengen dövlətləri üçün etibarlı və sığorta ödənişinin minimal həddi 30.000 avro və ya 50.000 ABŞ dolları olan səyahət sığorta sənədinin *(əsli+surəti)*
- viza rüsumu (bax: rəsmi internet səhifəsində "rüsumlar")

Səfər məqsədinin təsdiqi:

- Aşağıda göstərilən məlumatları əks etdirən dil məktəbinin təsdiq sənədi *(əsli, faks və ya pdf)*
  - Dil məktəbinin ünvanı və əlaqə nömrələri
  - kursun keçirildiyi müddət və həftəlik dərs saatlarının sayı (həftədə ən az 18 dərs saatı olmaqla)
  - Kursun rüsumunun tam ödənildiyinin təsdiq olunması
- Yaşayacağınız yer barədə sənəd (dil məktəbinin təsdiq məktubunda yaşayış yeri haqqında məlumat qeyd olunmadığı təqdirdə) *(əsli, faks və ya pdf)*
- Tələb olunduğu təqdirdə əldə etdiyiniz dil bilikləri haqqında sənədlər, məs: dil kursunun diplomu və ya alman dili fənnindən qiymətlərin qeyd olunduğu attestat *(əsli+ surəti)*

Maliyyələ vəsaitinə dair təsdiq:

- Almaniyanın "Əcnəbilərlə İş üzrə İdarə" tərəfindən verilən "Almaniyada yaşamaq haqqında qanun"un 66-68 §§ uyğun olaraq "Öhdəlik Bəyanatı" (6 aydan köhnə olmamaqla) *(əsli+ surəti)*

yaxud

- Bankdan arayış və maliyyə vəsaiti haqqında bank hesabından çıxarışlar yaxud son 3 ay müddətində kredit kartı ilə ödəmələr haqqında çıxarış

Yaşadıqnız dövlətə geri qayıdacağınızı sübüt edən sənədlər:

- Aşağıdakı məlumatları əks etdirən iş yerindən arayış *(əsli)*
  - İşəgötürənin ünvanı və telefon nömrələri
  - Firmada icra etdiyiniz vəzifə, məvacib, işə qəbul edilidiyiz tarix

yaxud

- Sahibi olduğunuz şirkətinizin dövlət qeydiyyatı sənədi və VOEN şəhadətnaməsi *(əsli+ surəti)*

Son beş il ərzində Şengen dövlətlərinə səfər etməyən və ya köhnə vizaların alınmasını sübüt edə bilməyən şəxslərdən tələb olunur:

- Nigah haqqında şəhadətnamə və azyaşlı uşaqların doğum haqqında şəhadətnamələri *(əsli + surəti)*
- Daşınmaz əmlaka (ev, torpaq sahəsi) sahibliyinizi təsdiq edən sənədlər *(əsli + surəti)*
- Nəqliyyat vasitəsinə sahibliyinizi təsdiq edən sənədlər *(əsli + surəti)*

<u>18 aşdan kiçik olan uşaqlar üçün:</u>

- Hər bir uşaq üçün valideynlər (yaxud qəyyum) tərəfindən imzalanmış ərizə forması verilməlidir! Bu halda aşağıdakı sənədlər mütləq təqdim edilməlidir:
  - Viza şöbəsində uşağın vıza üçün sənədlərinin təqdim edilməsində iştirak etməyən və onunla birgə səfər etməyən valideyn (yaxud qəyyum) tərəfindən uşağın Şengen dövlətlərinə səfərinə razılığını bildirən və notarius tərəfindən təsdiq edilmiş izahat *(əsli + surəti)*
  - Uşağın doğum haqqında şəhadətnaməsi *(əsli + surəti)*

<u>Diqqət!</u>

Səfirliyin məlumat vərəqələri və ərizə formaları / anketləri pulsuz əldə olunur. Xahiş olunur, yalnız birbaşa səfirlikdən və ya internet səhifəsindən götürdüyünüz anketlərdən istifadə edəsiniz.

Xahiş edirik, vaxtında visa üçün qəbul vaxtını təyin edin və nəzərə alın ki, viza üçün nəzərdə tutulan səfərdən 3 ay əvvəl müraciət etməlisiniz.

Əlavə xərclər, məsələn kseroks, telefon və faks xərcləri ərizəçi tərəfindən ödənilməlidir

Natamam şəkildə təqdim edilən sənədlər bir qayda olaraq geri qaytarılır və ya ərizə haqqında qərar təqdim olunan sənədlərə müvafiq olaraq verilir. Bundan başqa səfirlik ayrı-ayrı hallarda digər sənədlər də tələb edə bilər.Sənədlərin tam şəkildə təqdim edilməsi avtomatik olaraq vizanın verilməsi demək deyildir.

Səfirlik turizm şikətləri və kənarda xidmət göstərən təşkilatlarla işləmir.

Ərizəni əsaslandıran sənədlərin mümkün qədər əsli (xüsusilə maliyyələşdirməni sübut edən sənəd və səyahət üçün olan tibbi sığorta) səyahət zamanı sərhəd nəzarəti üçün özü ilə götürülməlidir.